

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 iyun 2025-ci il №43 (2952) https://mod.gov.az Qiyməti 30 qəpik


## 107 illik tarix - Qalib Azərbaycan Ordusu

Silahlı Qüvvələrimizin yaranmasından 107 il ötür. 1918-ci ilin bu günündə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Azərbaycanda ilk nizami hərbi qurum olan Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müvafiq fərmanı ilə Əlahiddə Azərbaycan Korpusunun yarandığı təqvim günü - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü olaraq tarixləşdi. Ötən əsrin əvvəllərində Milli Ordumuzun yaradılmasını zəruri edən səbəblər xarici təcavüzlərin qarşısını almaq, daxili düşmən qüvvələri zərərsizləşdirmək idi ki, bu da silahlı qüvvələrin yaradılmasını şərtləndirirdi. Təşkil olunan nazirliyin formalaşmasında, ordu quruculuğunda nazir kimi Səməd bəy Mehmandarovun, nazir müavini kimi Əlağa Şıxlinskinin böyük xidmətləri oldu. Yaradılan və formalaşan orduda mühüm islahatlar keçirildi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu uğramasından sonra ordu da müstəqilliyini itirdi...



Ötən əsrin 70-ci illərində Azərbaycanda ordu quruculuğu özünün təkamül dövrünə qədəm qoydu. Azərbaycanın müasir ordu quruculuğu mərhələsinə qədəm qoyması dahi şəxsiyyət Heydər Əliyevin sayəsində mümkünləşdi. Milli zabit kadrlarımızın hazırlanması üçün Ulu Öndər Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail oldu. Tarixi şəxsiyyət Heydər Əliyev hələ sovetlər dönəmində rəhbərlikdə olarkən prioritet olaraq seçilmiş ordu quruculuğu ölkəmizin qüdrətinin artmasında vasitə oldu. Məhz onun sayəsində xalqımızın gələcək uğurlara, gözəl günlərə olan ümidi artırdı. Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclər Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut), Bakı Ali Hərbi Dənizçilik Məktəbində və SSRİ-nin nəzdində digər nüfuzlu xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alırdılar.

Ötən əsrin sonlarında müstəqilliyimiz bərpa olunduqdan sonra hakimiyyətdəki qrupların səriştəsizliyi və siyasi hərcmərclik fonunda hərbi sahədə də ciddi böhran yaranmışdı. Bundan sui-istifadə edən məkrli qonşularımız havadarları sayəsində tarixi torpaqlarımıza işğalı davam etdirirdi.

Torpaqlarımızı yaradılan könüllü yerli özünümüdafiə batalyonları müdafiə edirdi. Nizami orduya malik olmayan, komandansız hərbçilərimizin qarşısında çox çətin və şərəfli vəzifə dururdu. Vətənpərvər oğullarımız çətin şəraitdə, təminatsız və təchizatsız bir vəziyyətdə düşmənlə pərakəndə şəkildə döyüşürdülər. Könüllü batalyonlardan nizami orduya keçid lazım idi. Gün keçdikcə torpaqlarımızın işğal miqyası böyüyürdü.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan müdafiə naziri Belarusa rəsmi səfər edib

İyunun 16-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının müdafiə naziri general-leytenant Viktor Xreninin dəvəti ilə bu ölkəyə rəsmi səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Minsk Milli Aeroportunda general-polkovnik Z.Həsənovu belaruslu həmkarı qarşılayıb.

Azərbaycan müdafiə nazirinin səfər çərçivəsində Belarus hərbi rəhbərliyi ilə bir sıra görüşləri, eləcə də bir neçə hərbi hissələrə ziyarəti nəzərdə tutulub.

## Azərbaycan HDQ-nin gəmiləri “Xəzri-2025” birgə taktiki təlimi üçün yola düşüb



Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında 2025-ci il üçün imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçiriləcək "Xəzri-2025" birgə taktiki təlimi üçün Azərbaycan HDQ-nin gəmiləri və şəxsi heyəti Bakıdan yola düşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, Xəzər dənizinin Qazaxıstan Respublikasına məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimin məqsədi Azərbaycan və Qazaxıstan hərbi dənizçilərinin peşəkarlığının daha da artırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

## Fatih Dönməz: İkinci Qarabağ müharibəsindən sonra regionda dayanıqlı sülh üçün unikal fürsət yaranıb

Azərbaycan bizim üçün sadəcə dost və tərəfdaş deyil - eyni tarixi, ortaq kökləri və mədəniyyət dəyərlərini paylaşdığımız qardaş dövlətdir. Türkiyənin və Azərbaycanın strateji tərəfdaşlığı, bütün regional əməkdaşlıq təşəbbüslərinin əsasını təşkil edir.

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Böyük Millət Məclisinin deputatı Fatih Dönməz iyunun 18-də Milli Məclisdə keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasında deyib.

O qeyd edib ki, bu əməkdaşlıq xüsusilə nəqliyyat və logistika sahəsində mühüm nəticələr verir. Türkiyə beynəlxalq yük və sərnişindaşıma sahəsində müasir yanaşmalara açıqdır. Nəqliyyatın rəqəmsallaşdırılması və texnoloji yeniliklərin tətbiqi həm strateji, həm də siyasi əhəmiyyət daşıyır. Bu istiqamətdə Türkiyədə artıq bir sıra mühüm layihələr həyata keçirilir.

"İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıq dayanıqlı sülh və əməkdaşlıq üçün unikal fürsətlər təqdim edir. Azərbaycanın əzmi və siyasi iradəsi sayəsində bu gün bölgədə uzunmüddətli sülh üçün tarixi imkan yaranıb. Biz inanırıq ki, Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh müqaviləsi təkcə bu iki ölkə üçün deyil, geniş coğrafiyamız üçün də sülh, sabitlik və əməkdaşlıq baxımından əhəmiyyətli nəticələr doğuracaq. Ermənistanın bu prosesə səmimi şəkildə qoşulması və regionun gələcəyinə töhfə verəcək addımlar atması bütün bölgənin sabitliyi üçün həlledici olacaq", - deyə türkiyəli deputat vurğulayıb.

Onun sözlərinə görə, Türkiyə bu istiqamətdə Azərbaycanın mövqeyini tam dəstəkləyir və regionda sabitliyin, iqtisadi inkişafın, xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə səyləri davam etdirməyə hazırdır.

## Ordumuzun tibb təminatı gündən-günə güclənir



İnsan üçün ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri dururlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı uğurlu islahatlar tibb sahəsindən də yan keçmədi. Səhiyyənin səmərəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün maddi-texniki baza yaradıldı, beynəlxalq əlaqələr genişləndirildi. Görülən işlərin, aparılan islahatların nəticəsində bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur.

(Ardı 3-cü səhifədə)

## Ötən həftə 160 mina və 528 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 10-dan iyunun 16-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 131, tank əleyhinə 29 mina və 528 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin həftə ərzində 1358,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# 107 illik tarix - Qalib Azərbaycan Ordusu

(Əvvəli 1-ci səhifədə)

Vətənə xilaskar, orduya komandan, xalqa uzaqgörən şəxsiyyət gərək idi. Bu çətin və böyük vəzifənin öhdəsindən gələ biləcək şəxsiyyət, ömrünü xalqın rifahına, Vətənin inkişafına, ordunun formalaşmasına həsr etmiş Heydər Əliyev oldu. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduqdan sonra hər bir sahədə olduğu kimi, hərbi sahədə də dirçəlişə nail ola bildik. O, yerli özünümüdafiə və könüllü batalyonları, pərakəndə silahlı birləşmələri ləğv etdi, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Ali Baş Komandan olaraq, bütün riski və təhlükəni gözə alaraq, ön xəttə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi Azərbaycan əsgərinin özünəinam hissini daha da artırdı. Təsadüfi deyil ki, məhz Heydər Əliyevin komandanlığı altında ordumuz Füzulinin Horadiz istiqamətində separatçı qüvvələr üzərində tarixi qələbə qazanmağı bacardı. 1994-cü ilin 12 mayında imzalanmış atəşkəsdən sonra ordu quruculuğu fəaliyyəti heç bir kənar qüvvələrin köməyi və dəstəyi olmadan, öz iqtisadi gücümüz hesabına görülməyə başladı. Ordu quruculuğu istiqamətində köklü islahat və kompleks tədbirlər həyata keçirməklə hərbi qanunvericilik bazasının yaradılması ilə şəxsi heyətin peşəkarlığının artırılması, müasir maddi-texniki bazanın formalaşdırılmasına yönəlik təxirəsalınmaz işlər görüldü. Müasir ordu quruculuğu modern tələblər çərçivəsində, beynəlxalq təcrübələr öyrənilməklə, elmi prinsiplər əsasında aparıldı. Dünyanın aparıcı ordularının standartları nəzərə alınmaqla, ordumuzun müasir sistemə inteqrasiyası aparıldı. Təkamül, təşkilatlanma, silahlanma işləri sürətləndirildi. Hərbi qulluqçuların sosial-məişət şəraiti, təchizat vasitələri müasir tələblər nəzərə alınmaqla quruldu. Zabit kadrlarının hazırlanması, müxtəlif miqyaslı təlimlərin keçirilməsi, onların xarici ölkələrdə keçirilən kurs və məşqələrə cəlb olunması şəxsi heyətin peşəkarlaşmasında mühüm faktorlar oldu. Əbədiyaşar Komandan Heydər Əliyev tərəfindən başladılan müasir ordu quruculuğu prosesini bu gün onun siyasi və hərbi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğur, qürur və zəfər dolu səhifələrlə davam etdirir.





Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Heydər Əliyevin sərkərdəliyi ilə həyata keçirilən Horadiz əməliyyatından sonra ordunun şəxsi heyətinin döyüş əzmi də yüksəldi, qələbə ruhu da. Bu qələbə başlanğıc qələbə kimi tarixləşdi. 2016-cı ildə Aprel döyüşləri zamanı əsas strateji nöqtələr olan Lələtəpə və Talış yüksəklikləri düşməndən azad edildi. 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının tarixi ərazi inzibati vahidi Günnüt kəndinin işğaldan azad olunması ilə bölmələrimiz bu yurd yerimizdə də üçrəngli şanlı bayrağımızı qaldırdı. 2020-ci ilin yarısında baş verən Tovuz döyüşləri xalqımızın birliyinin sarsılmazlığının simvolu oldu. Milli Qəhrəmanımız general-mayor Polad Həşimovun döyüş meydanında qəhrəmancasına şəhadətə ucalması, xalqımızı gec saatlarda küçələrə gətirdi. Qisas hissi, birlik məfhumu, xalq təəssübkeşliyi ilə küçələrə axışan qəhrəman oğullarımız xalq-ordu-dövlət birliyimizin əsas məfhumu olan Dəmir yumruq yaradaraq Ali Baş Komandanın ətrafında sıx birləşdi. Bu hadisə düşmən üçün dərs olmalı idi, çünki onlar üzləşdiyi rəzil məğlubiyyətlərlə, nəhayət, dərk etməli idilər ki, Qarabağ Azərbaycandır! Lakin düşmən başına gələnlərdən dərs çıxartmaq istəmədi və vəziyyəti daha da gərginləşdirməyə davam etdi.

Sentyabrın 27-si təqvimimizdə Anım günü olaraq tarixləşsə də, 2020-ci ilin məhz həmin günü Azərbaycan əsgərinin Zəfər və Qisas döyüşünün başladığı gün oldu. Düşmənin həmin tarixdə törətdiyi təxribat nəticəsində yaşayış məntəqələri, döyüş mövqelərimiz artilleriya atəşinə məruz qaldı və nəticədə hərbi qulluqçularımızla yanaşı, dinc sakinlərimiz, o cümlədən 2 azyaşlı dünyasını dəyişmişdi. Ali Baş Komandanımızın tapşırığı ilə ordumuz bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Hər günü bir tarix olan mübarizəmiz 44 gün davam etdi. Hər gün, hər saat, hər dəqiqə, hətta saniyə qüdrətimizi təsdiqləyir, Böyük Qələbəyə bizi yaxınlaşdırırdı. Haqq savaşımız təkcə ordumuzun gücünü deyil, xalqımızın əyilməz ruhunu, döyüşçülərimizin qələbə əzmini dünyaya nümayiş etdirdi. Hər bir soydaşımızın qəlbi öz əsgərinin yanında, döyüş meydanında idi. Sadalananlar müharibənin mənəvi və ideoloji amilləri idi. İkinci Qarabağ müharibəsi, həmçinin ordumuzun, müasir müharibədə döyüşün modern üsul və vasitələrlə, humanizm prinsiplərinə sədaqətlə döyüş aparmanın bir dərsliyi idi. Güclü ordumuz XXI əsrin döyüş üslubu və üsulunu dünyaya təqdim etməklə, müasir döyüş vasitələrinin tətbiqini də hərb elminə daxil etmiş oldu. Məhz müasir döyüş üsulunun uğurlu tətbiqinin nəticəsi idi ki, düşmənin uzun illər ərzində qurduğu bir neçə istehkam səddinin aşılmasına baxmayaraq itkilərimiz az oldu. - Torpaq, uğrunda ölən varsa, Vətəndir - müharibə itkisiz olmur. Şəhidlərimizin də gözlərini qırpmadan Vətən torpağını qanı ilə suvarmaq üçün öz canlarını fəda etməkləri vətənpərvərliyin nə olduğunun təsdiqidir. Onların hər biri igidlik, cəsarət, qorxmazlıq nümunəsi yaradaraq, qəhrəmanlıq salnaməsi yazmış şəhidlərimizdir. Təsəllimiz odur ki, qisas qiyamətə qalmadı, şəhid qanı yerdə qalmadı, döyüş meydanında qisas alındı, düşmən darmadağın edildi. İşğaldan təmizlənən tarixi torpaqlarımıza bayrağımızın sancılması qisasın alınmasından, beləliklə, minlərlə şəhidimizin ruhunun artıq şad olduğundan xəbər verirdi. Düşmənin on illərlə "möhkəmləndirdiyi" mövqelərin cəmi 44 günə zərərsizləşdirilməsi Azərbaycan Ordusunun qarşısında heç bir maneənin tab gətirməyəcəyinin təcəssümü idi. Hər gün cəbhədən gələn zəfər müjdəli xəbərlər hər bir azərbaycanlının ürəyindəkindən xəbər verirdi.





44 gününün hər günü öz müqəddəsliyini qoruyub saxlayır. İşğaldan azad olunan Vətən torpağının hər qarışı bizim üçün əzizdir, lakin Qarabağımızın tacı, mədəniyyətimizin beşiyi olan Şuşanın azad olunması və bu niyyətin necə icra olunmasına nəzər salsaq görərik ki, Azərbaycan əsgəri bu müqəddəs vəzifənin öhdəsindən peşəkarcasına gəlməyi bacarıb. Xüsusi təyinatlılarımızın sıldırım qayaları aşaraq, düşməni yaxın təmasda məhv etməsi dünyanın hərbi analitik mərkəzləri tərəfindən təhlil edilir. Şübhəsiz ki, Şuşanın azad edilməsi əməliyyatı dünya hərb tarixinə yazılmış bir əməliyyatdır. Bu gün dünya ölkələrinin müxtəlif istiqamətlər üzrə hərbi ekspert və mütəxəssisləri ordumuzun müharibədə əldə etdiyi döyüş təcrübəsini öyrənir, hərbi taktikasını analiz edir. Nəticə etibarı ilə sentyabrın 27-dən başlayan noyabrın 10-dək davam edən haqq savaşımız zamanı 5 şəhər, 4 qəsəbə, yüzlərlə kənd düşmən işğalından azad edildi. Bəyanatın şərtinə əsasən, 2020-ci il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonları Azərbaycana qaytarıldı. Qazanılan Böyük Qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda Azadlıq meydanında möhtəşəm Zəfər Paradı təşkil olundu. Parad zamanı Silahlı Qüvvələrimizin malik olduğu müasir silah və texnikalarla yanaşı, düşmənin məhv edilmiş və ya qənimət kimi ələ keçirilmiş hərbi texnikaları da nümayiş etdirildi.

İmzalanmış bəyanata əsasən erməni tərəfinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi ilə vaxtın uzadılması və yeni təxribatların törədilməsi bizim xeyrimizə deyildi. Qarşı tərəfin silahlı birləşmələrinin qalıqları torpaqlarımızı tərk etmək istəmir, revanşist qüvvələr təmas nöqtələrində öz məkrli niyyətlərini icra etmək üçün fürsət gözləyirdilər. 2020-ci ilin noyabrından, 2023-cü ilin sentyabrına qədər separatçı silahlı qruplarla hərbi qulluqçularımız arasında bir neçə dəfə qanlı toqquşmalar baş verdi. Bölmələrimizin istifadə etdiyi yollarda üçtərəfli bəyanatların imzalandığı tarixdən sonrakı dövrdə Ermənistanda istehsal edilmiş minaların basdırılması və partlayış nəticəsində hərbi qulluqçularımızın şəhid olması Dəmir yumruğun işə düşməsini şərtləndirirdi. 2023-cü ilin 19-20 sentyabr tarixlərində baş tutan antiterror əməliyyatı ilə erməni silahlı birləşmələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri bir gündən az müddətdə elə sarsıdıcı zərbələrə məruz qaldılar ki, ağ bayraq qaldıraraq təslim oldular. Bununla da düşmən tamamilə məğlub edildi və xeyir bir daha şər üzərində qələbə çaldı. Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında keçirdiyi antiterror əməliyyatı nəticəsində Xankəndi, Xocalı, Ağdərə, Əsgəran və digər tarixi torpaqlarımız düşməndən təmizləndi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən şanlı üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qaldırıldı.

(Ardı 5-ci səhifədə)

*Tibb xidməti*

# Ordumuzun tibb təminatı gündən-günə güclənir

(Əvvəli 1-ci səhifədə)

Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq, hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Hər sahədə olduğu kimi, Azərbaycan Ordusunda da səhiyyə sahəsinə xüsusi diqqət göstərilir. Vətən müdafiəçilərinin sağlamlığının keşiyində duran hərbi tibbi personalımızın peşə bayramı hər il təntənəli şəkildə qeyd olunur, xidmətlərində fərqlənənlər mükafatlandırılır.

Araşdırmalardan bəlli olur ki, hərbi təbabətin yaranma tarixi tibbin özünün tarixi ilə eynidir və minilliklər ərzində, ilk müharibələr zamanı formalaşıb. Qədim Hindistan, Misir, Çin, Yunanıstan və Roma ordularında yaralanmış döyüşçülərin yaraları sarınaraq onlara tibbi yardım göstərilmişdir. Bunu arxeoloji qazıntılar və ədəbi mənbələr də sübut edir. Məsələn, Rusiyanın Kerç şəhəri yaxınlığındakı Kül-oba kurqanında tapılmış b.e.ə VII əsrə aid qızıl vazanın üzərində döyüş meydanında tibbi yardım göstərən skiflər təsvir edilmişdir. Türk dövlətlərinə aid arxivlərdə saxlanılan ilk yazılı bəlgələr isə Səlcuqlar dövrünə məxsusdur. Tədqiqatlar onu da göstərir ki, bu dövrdə tibbə böyük önəm verilmiş, darüşşəfalar açılmışdır. Hərbi təbabət yönündə isə Səlcuqların hələ neçə əsr öncə hərbi xəstəxanalara sahib olduqları müəyyən edilmişdir. Ölkəmizdə isə hərbi səhiyyə ilk dəfə 1918-ci il noyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə Hərbi Nazirliyin tibb şöbəsi kimi yaradılıb. Qədim tarixi olan hərbi təbabət sülh və döyüş fəaliyyəti dövründə hərbi qulluqçuların sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, xəstəliklərin, döyüş travmalarının qarşısının alınmasına yönəldilən elmi biliklər və praktiki fəaliyyət sistemidir. Bu gün səhiyyə sahəsi Azərbaycan Ordusunda xüsusi diqqət və qayğı göstərilən əsas təminat növlərindən biridir. Bu təminat Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş Əsasnaməyə, müdafiə nazirinin bu sahədəki müvafiq əmr və sərəncamlarına uyğun olaraq qurulub. Azərbaycan Ordusunda tibb xidmətinə metodik rəhbərliyi, tibbi əmlakla təchizatı, kadrların seçilməsini və yerləşdirilməsini, elmi-tədqiqat və müalicə-profilaktika fəaliyyətini koordinasiya və təşkil edən əsas rəhbəredici inzibati orqan Müdafiə Nazirliyinin Tibb İdarəsidir. Müdafiə Nazirliyinin Tibb İdarəsi ona tabe olan tibbi hərbi hissə, müəssisələr və bölmələrin vasitəsi ilə Müdafiə Nazirliyində tibbi təminatı həyata keçirir. İstifadə olunan bu sistem tibb xidməti fəaliyyətinin idarə (koordinasiya) olunmasını və tibbi təminatın təşkili üzrə qərarlar qəbul edilməsini, sülh və müharibə dövründə hərbi qulluqçuların həyatının və sağlamlığının qorunması üçün tədbirlər keçirilməsini təmin edir.

Bölgələrdə, xüsusən də, işğaldan azad olunmuş ərazilərimizdə dislokasiya olunan şəxsi heyətin tibbi təminatı müasir və eyni zamanda, yüksək



səviyyədə təşkil edilir. Dövlət başçısının rəhbərliyi ilə ordu quruculuğunda aparılan uğurlu islahatlar tibb xidmətindən də yan keçmir. Respublikamızda hərbi təbabətin daha müasir uğurla inkişaf etdirilməsi və təkmilləşdirilməsi daima diqqət mərkəzindədir. Bütün hərbi hissələr tibbi yardım avtomobilləri ilə, o cümlədən zirehli ambulanslarla, diaqnostik tibbi cihaz və avadanlıqlarla, dərman preparatları ilə tam təmin olunur. Hərbi hissələrdə müasir tələblərə cavab verən onlarla tibb məntəqəsi tikilib, Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Gəncə Hospitalı, Mərkəzi Stomatoloji Poliklinika, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi, Mərkəzi Hərbi Həkim Komissiyası, Sanitar-Epidemioloji Nəzarət Mərkəzi əsaslı təmir olunub və ən qabaqcıl tibbi avadanlıqlarla təchiz edilən yeni binalara köçürülüb. Hərbi qulluqçular üçün İstirahət Evi də fəaliyyət göstərir. Həmçinin işğaldan azad olmuş ərazilərdə dislokasiya olunan şəxsi heyətin tibbi təminatının təşkil edilməsi məqsədilə yeni və tam təchizatlı hərbi hospitallar, tibb məntəqələri istifadəyə verilib, hazırda yeni hospitalların tikintisi planlaşdırılır. Bir sözlə, yerləşmə yerindən asılı olmayaraq, bütün hərbi hissə və bölmələrimiz təcili tibbi yardım avtomobilləri ilə, diaqnostik tibbi cihaz və avadanlıqlarla, dərman preparatları ilə, fərdi tibbi vasitələrlə tam təmin olunur.

Danılmaz bir fakt var ki, şəxsi heyətin sağlamlığı döyüş hazırlığına təsir edən ən mühüm amildir. Bu işdə isə hərbi tibbi personalın üzərinə böyük məsuliyyət düşür. Bu gün ordumuzda peşəkar hərbi həkim kadrlarının hazırlanması prosesi uğurla aparılır. Hərbi hissələrin şəxsi heyətinin tibbi təminatının təşkil edilməsi ilə yanaşı, tibb xidmətinin əsas vəzifələrindən biri də yüksək ixtisaslı tibbi kadrların hazırlanmasıdır. Çünki Azərbaycan Ordusunda yüksək ixtisaslı tibbi kadrların hazırlanması ölkəmizin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərdən biridir. Hərbi Tibb Fakültəsi yaradılanadək Azərbaycan Ordusu üçün həkimlərin hazırlanması əsasən mülki ali təhsil müəssisələrində fəaliyyət göstərən hərbi kafedralarda həyata keçirilirdi.

Orduda yüksək ixtisaslı tibb kadrlarına tələb olduğunu və ölkəmiz üçün mühüm əhəmiyyət kəsb etdiyini görən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 25 may 2000-ci ildə Azərbaycan Tibb Universitetinin tabeliyində Hərbi Tibb fakültəsi yaradılması barədə Sərəncam imzalandı. Hal-hazırda Hərbi Tibb Fakültəsi səriştəli və savadlı peşəkar hərbi həkim və feldşerlərin hazırlanması işinin öhdəsindən uğurla gəlir. Bu gün fakültəmizin məzunları olan hərbi həkimlərimiz həm Baş Klinik Hospitalda, həm qarnizon hospitallarında, həm də ucqar tibb məntəqələrimizdə uğurlu fəaliyyət göstərirlər.

Ordumuzun döyüş salnaməsinə hərbi səhiyyəmiz şanlı tarix yazıb. İkinci Qarabağ müharibəsində bütün qoşun növləri kimi, hərbi tibbi personalımız da ağır sınaqlardan üzüağ çıxdı. Məlumat üçün deyim ki, döyüş fəaliyyətləri zamanı tibbi təminat - şəxsi heyətin sağlamlığının qorunması, möhkəmləndirilməsi, bərpa edilməsi və xəsarət alanların döyüşənlərin sırasına mümkün qədər tez qaytarılması məqsədilə bütün tibbi hissə və bölmələrin yerinə yetirdiyi təşkilati, profilaktik, müalicə-təxliyə, əks-epidemik və digər tədbirlər kompleksidir. Tibb xidmətinin döyüş vaxtı əsas vəzifələri, ümumilikdə, şəxsi heyətin qüvvəsini və ya döyüş gücünü mümkün olan ən yüksək səviyyədə qoruyub saxlamaqdır. Bir sözlə, döyüşün tibbi təminatı döyüş gücünün saxlanılmasına xidmət edir. Bu gün biz qürurla deyirik ki, tibbi personalımız 44 gün ərzində döyüş fəaliyyəti zamanı tibbi təminatın qarşısında duran tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəldi. Hərbi həkimlərimiz əməliyyatlar zamanı digər qoşun növləri ilə çiyinçiyinə döyüşə atılaraq qəhrəmanlıq nümunələri göstərdilər. Müharibə zamanı tibb işçilərindən yaralananlar, 42 nəfər isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Xüsusi vurğulamaq yerinə düşər ki, müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində "Doğrudan da, həkimlər gecə-gündüz yorulmadan, o ağır şəraitdə, çətin şəraitdə öz həyatını risk altına ataraq yaralılara qulluq edirdilər. Şəhidlərimizin sayının o qədər də çox olmamasının səbəblərindən biri də məhz həkimlərdir", - deyərək tibbi personalımızın uğurlu fəaliyyətini yüksək qiymətləndirib.

Hərbi həkimlərimizin növbəti sınağı qardaş ölkə Türkiyədə oldu. Xalqımıza qürurlu anlar yaşadan hərbi tibb personalımızın Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyi və Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə fəaliyyəti hərbi tibb tariximizdə yeni səhifə açdı. "Dost dar gündə tanınar" deyiblər. Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Tarixin ən mürəkkəb dövrlərində iki qardaş ölkə bir-birilərinə dəstək olub. Hər zaman olduğu kimi, Türkiyədə əsrin fəlakəti adlandırılan zəlzələ zamanı da ölkəmiz dəstəyini, qardaşın qardaşa vəfa borcunu əsirgəmədi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun hərbi tibb personalı Türkiyəyə ezam olundu. Hərbi həkimlərimiz Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərdi.

Ümumilikdə, 81 cərrahi əməliyyat icra edən, 517 nəfərə isə ambulator yardım göstərən 20 nəfərlik hərbi tibb personalımızın fəaliyyəti Türkiyədə yüksək qiymətləndirildi. Həmçinin qardaş ölkəyə ezam olunmuş hərbi tibb personalımızın rəhbəri tibb xidməti polkovniki Niyaməddin Ağamalıyevi Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə Cümhuriyyəti Dövlət Üstün Fədakarlıq Medalı" ilə təltif etdi. Bu bir hərbçinin timsalında ordumuza, ordunun timsalında dövlətçiliyimizə ehtiramın və Kahramanmaraşda 21 gün müddətində fəaliyyətdə olan tibb personalımızın zəhmətinə verilən yüksək qiymətin təzahürüdür.

Səhiyyə sistemində aparılan hər bir islahat insanların sağlamlığına etibarlı təminat yaradır. Hərbi tibb sahəsində də mütəmadi islahatlar aparılır, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Bu istiqamətdə atılan addımların hərbi tibb sahəsinə müsbət təsirləri var. Belə ki, Azərbaycan Ordusunun xarici ölkələrlə ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığı hərbi təbabətin inkişafına da təsirsiz ötüşmür. Onlarla hərbi həkimimiz hər il müxtəlif xarici ölkələrdə elmi simpoziumlarda, beynəlxalq konfranslarda fəal iştirak edir və faydalı təcrübə mübadiləsi aparır. Azərbaycan, həmçinin Beynəlxalq Hərbi Tibb Komitəsinin üzvüdür. 1921-ci ildə Belçikada yaradılan Beynəlxalq Hərbi Tibb Komitəsi Cenevrə Konvensiyalarının prinsiplərini daha dolğun yerinə yetirmək və hərbi tibb sahəsində elmi məlumat mübadiləsini təmin etmək məqsədilə təsis olunub. Hazırda 112 dövlətin üzv olduğu Beynəlxalq Hərbi Tibb Komitəsinin əsas vəzifəsi hərbi tibb sahəsində texnoloji və elmi təcrübə mübadilələrini təşviq etməkdir. Bundan əlavə, komitə silahlı qüvvələrin tibb xidmətlərinin gənc hərbi həkimləri üçün beynəlxalq sessiyalar və təkmilləşmə kursları, yüksək rütbəli zabitlər üçün silahlı münaqişələrin hüquqi aspektləri üzrə kurslar, iki ildə bir dəfə beynəlxalq konqreslər təşkil edir. Bu komitənin bir üzvü kimi Azərbaycan hərbi tibb xidmətinin beynəlxalq əməkdaşlıq arealı çox genişdir. Bu da hərbi təbabət sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, bu sahədəki beynəlxalq standartların ordumuzda tətbiq edilməsinə böyük töhfələr verir. Səhiyyənin inkişafına daim xüsusi diqqət yetirmiş, tibb işçilərinə böyük qayğı göstərmiş Ulu Öndər "Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir" demişdir. Bu gün Azərbaycan Ordusunda xidmət edən bütün tibb heyəti hərbi qulluqçuların sağlamlığının keşiyində inamla dayanır, tibb xidmətini yüksək səviyyədə təşkil edərək, vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Onlar həm yaralanmış və xəstələnmiş hərbi qulluqçulara tibbi yardım göstərir, onları müalicə edir, həm də şəxsi heyət arasında xəstəliklərin yaranması və yayılmasının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görürlər. Respublikamızın və eyni zamanda, ordumuzun bütün tibb heyətini 17 İyun - Tibb İşçilərinin Peşə Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinə məsuliyyətli və şərəfli xidmətlərində uğurlar, yeni nailiyyətlər arzulayırıq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Müsahibə*

# Azərbaycan Ordusu daha da güclənəcək

*Müsahibimiz tarix elmləri doktoru, ehtiyatda olan polkovnik, Milli Müdafiə Universiteti Hərbi Elmi İnstitutun professoru Mehman Süleymanovdur.*



**- Hörmətli professor, Sizin elmi tədqiqat obyektinizin bir istiqaməti də Cümhuriyyət dövrünü əhatə edir. Müsahibəni sizin sualsız cavabınızla başlayaq.**

- Olsun. Bu da orduya sevginin təzahürüdür. Mən Silahlı Qüvvələr Günü münasibətilə xidmət edən hər bir hərbi qulluqçunu təbrik edirəm. Əminəm ki, onlar fədakar, sədaqətli xidmətləri ilə Azərbaycan Ordusunu Ali Baş Komandanın sərkərdəliyi ilə daha yeni inkişaf səviyyəsinə qaldıracaq, ordumuz daha böyük uğurlar qazanacaq.

**- Dövlət və ordu istilahları bir-birinin şərti və bir-birinin nəticəsidir.**

- Elədir. Tarix də təsdiqləyir ki, dövlətin qurulmasında da, yaşadılmasında da ordu şərtdir. Tarixən Azərbaycan ərazisində yaranmış dövlətlərin həmişə güclü qoşunu olub. Yaşamağı, var olmağı siyasi nüfuzla bir sırada bu amil də müəyyənləşdirirdi. Azərbaycanın coğrafi üstünlükləri, əlverişli həyat şəraiti, zəngin təbii sərvətləri yadelli qüvvələri bu torpağa çəkirdi. Onlara dövlət, xalq özünün güclü qoşunu ilə müqavimət göstərirdi. Yadellilər də yaxşı bilirdilər ki, bu müqaviməti qırmaq üçün onu qoşunlardan məhrum etmək lazımdır. Çar Rusiyası da belə düşünürdü. XIX əsrin əvvəllərində dövləti ilhaq etməklə bu dövlətin (xalqın) hərbi qüvvələrini ləğv etdikdən sonra azərbaycanlıları kütləvi şəkildə hərbi xidmətə cəlb etmirdi, azərbaycanlılara silah tapşırmaq, onlara silahla davranış vərdişləri aşılamaq istəmirdi. O dövrün maarifçiləri, təfəkkür sahibləri, Çar Rusiyasının işğalçı ordusunun tərkibində xidmət edən İsmayıl bəy Qutqaşınlı, Abbasqulu ağa Bakıxanov, sonralar Mirzə Fətəli Axundov kimi maarifçilər heç olmasa zabitlərin rus ordusu tərkibində olmasını arzu edirdilər. Ona görə də 1917-ci ilin dekabrında Müsəlman korpusunun təşkilinə başlananda Azərbaycan xalqı Cənubi Qafqazdakı qonşu xristian xalqlarından fərqli olaraq təşkilatlanma çətinlikləri ilə qarşılaşdılar.

**- Yurd sözünün müxtəlif çalarlarından biri də Vətən anlamını verir. Xalq şairi Zəlimxan Yaqub yazmışdı ki, "Ordum varsa, yurdum var!". On illər əvvəl yazılsa da, bu poetik tezisin mahiyyəti deyir ki, Cümhuriyyət yarandığı dövrdə də gerçəklik belə olub...**

- Ordu əqidənin, amalın gerçəkləşdirilməsində əvəzsiz əhəmiyyətə malik olan böyük qüvvədir. Azərbaycan Demokratik Respublikası qurulan dövrlərdə də gerçəklik belə idi.

1917-ci ilin dekabrında general Əlağa Şıxlinskinin rəhbərliyi ilə Müsəlman korpusunun təşkilinə başlananda Azərbaycan hələ müstəqil dövlət deyildi. Bu korpus Cənubi Qafqazda legitim hakimiyyət funksiyasını öz üzərinə götürmüş Cənubi Qafqaz Komissarlığının qərarı ilə təşkil edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə bu korpusun formalaşdırılması üçün müəyyən işlər görülmüşdü. Cümhuriyyət elan olunandan sonra Azərbaycan hökuməti bu korpusu öz nəzarəti altına götürdü, 1918-ci il iyunun 26-da onun bazasında Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Müstəqil Azərbaycan dövlətinin rəhbərləri də ordu olmadan dövlətin müstəqilliyini qoruyub saxlamağın mümkünsüzlüyünü nəzərə almışdılar.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev çıxışlarında Azərbaycan Xalq Cümhuriyyəti illərində milli ordu quruculuğu sahəsində görülən işlərə, əldə edilən nəticələrə yüksək qiymət verirdi. Əlahiddə Azərbaycan korpusunun əsasının qoyulduğu günün - 26 iyunun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü təyin edilməsi Cümhuriyyət Ordusu ilə müasir ordumuzu mahiyyətin eyniləşdirdiyi, bu eyniliyi yaradan və yaşadan amilləri saxlamağın zəruriliyi bir fərmanla (22 may 1998-ci il) təsbit edildi. Bu fərman əslində, Ümummilli Lider tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordunun təşkil edilməsi istiqamətində görülən işlərə verilən qiymətin, dəyərin ifadəsi idi.

**- Cümhuriyyət Ordusu yaradılmayınca və formalaşmayınca dövləti və dövlətçiliyi qorumaq, yaşatmaq mümkün olmayacaqdı. O dövrdə tarixi şərait necə idi?**

- Azərbaycan Xalq Cümhuriyyəti Ordusu çox ağır və mürəkkəb bir şəraitdə yaradılmağa başlamışdı. 1917-ci ilin oktyabrında Rusiyada dövlət çevrilişi baş verdi, bolşeviklər hakimiyyəti ələ aldı. Bu hakimiyyət Rusiyanın kənarlarında da, Cənubi Qafqazda da tanınmadı. Xalqlar öz hakimiyyətlərini qurmaqla bolşevik işğalından azad olmaq istəyirdi. Cənubi Qafqazda da belə bir vəziyyət yaranmışdı. Bu bölgənin xalqları birləşərək özlərinin hakimiyyətlərini - Cənubi Qafqaz Komissarlığını elan etdilər. Bu hakimiyyətin elan edilməsi Azərbaycan xalqını azadlığa çıxartmadı. Digər tərəfdən, Bakı neftində gözü olan ən müxtəlif qüvvələr Azərbaycanı ilhaq etməyə qərarlı idilər. Həmin vaxtlarda Rusiya bolşevik hakimiyyətini təmsil edən Bakı Soveti adlı erməni-daşnak bolşevik cütlüyü Bakıda hakimiyyəti zorla ələ aldı. Bu cütlük öz hakimiyyətini qorumaq üçün Azərbaycanın vətəndaşlarına divan tuturdu, xalqa qarşı görünməmiş vəhşiliklər həyata keçirirdi. Bakıda 1918-ci ilin mart qırğınları törədildi. Sonralar bu qırğınlar bölgələrə istiqamətləndirildi. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Bakı Sovetinin erməni-bolşevik qoşunları Gəncə istiqamətində hücuma keçdi, camaatı qıra-qıra Göyçaya qədər irəlilədi. Həmin vaxt Lənkəran bölgəsi orada qalmış Çar Rusiyası hərbi qüvvələrinin, Qarabağ bölgəsi isə erməni-daşnak qüvvələrinin nəzarəti altına keçmişdi. Bunlardan başqa, Almaniya və İngiltərə də Azərbaycan ərazisinə qoşun çıxarmağa bir bəhanə axtarırdı. O zaman Azərbaycanın bu təcavüzkarlara cavab verməyə qadir olan müdafiə qüvvələri yox idi. Azərbaycanı bu vəziyyətdən ancaq xalqın milli ordusu çıxara bilərdi...

**- Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaradılmasında siyasi çətinliklər də, maddi çətinliklər də, hərbi çətinliklər də vardı.**

- Azərbaycan xalqının milli azadlıq hərəkatının liderləri də, xalq da bilirdi ki, dövləti də, dövlətçiliyi də, xalqı da müxtəlif təhlükələrdən xalqın özü və ordusu qoruya bilər.

Azərbaycana qardaş köməyinə gəlmiş Osmanlı hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələri bazasında yaradılmış Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Azərbaycana gələndən iki gün sonra - 1918-ci il mayın 27-də Osmanlı Türkiyəsinin Hərbi Nazirliyinə bir teleqram göndərdi. Nuru paşa həmin teleqramda Azərbaycanın ağır vəziyyətini şərh etdikdən sonra yazırdı ki, Azərbaycanda ordu qurmaq üçün kifayət qədər canlı qüvvə, xüsusilə də atlılar var. Nuru paşa həm də yazırdı ki, xalq özünün topladığı ianələrlə ordunun xərclərini də öz üzərinə götürməyə hazırdır. Lakin bu qüvvələrə kömək lazımdır. Nuru paşa da, Azərbaycan hökuməti də belə bir köməyi Osmanlı dövlətinin yardımında görürdülər. Osmanlı dövləti Azərbaycanın istinad edə biləcəyi yeganə ünvan idi. Osmanlı dövləti bu köməyi göstərdi, Azərbaycana hərbi qüvvələr göndərdi. Azərbaycanın və Osmanlı dövlətinin birləşmiş hərbi qüvvələri Bakıya, sonra Şuşaya qədər zəfər dolu bir yol keçdi...

Canlı qüvvənin və müəyyən qədər maliyyə vəsaitinin olması heç də ordu qurulmasını təmin edə bilmir. Qısa müddət ərzində çoxlu sayda adam toplamaq olar. Amma onlara təlim verəcək zabitlər, bu adamların yerləşdirilməsi üçün infrastruktur olmasa, silah və təchizat mövcud deyilsə, ordu quruculuğu istiqamətində dövlət siyasəti yoxdursa, ordunun idarəetmə orqanları formalaşdırıla bilmirsə, onda toplanan adamlar say artırmaqdan başqa bir şey olmur.

Çar Rusiyasının apardığı siyasət nəticəsində Azərbaycan ərazisində hərbi infrastruktur kimi yalnız Salyan kazarmaları kimi tanınan bir neçə bina qalmışdı. Milli zabitlər həddən artıq az idi. Təchizat və hərbi texnika baxımından da böyük çatışmazlıqlar var idi. Hətta bunlar mövcud olsaydı da, döyüşə biləcək, bir xalqın taleyini müdafiə etməyə qadir olan bir ordunun formalaşdırılması üçün xeyli vaxt lazım gələrdi...

**- Dediklərimiz o dövrün gerçəklikləri idi, onlar bu gün tarixdir. Elə bir şəraitdə Cümhuriyyət Ordusu necə quruldu?**

- Ordu müstəqil dövlətin mövcudluq atributudur, onun təşkilatlandırılması da dövlətin qarşısında dayanan ən başlıca vəzifələrdən biridir.

Cümhuriyyət Ordusunu təsəvvürə gəlməz bir təşkilatçılıq qabiliyyəti ilə mücahidlər qurdu. Burada Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinin, parlamentinin, nazirliklərinin və Hərbi Nazirliyin yekdil fəaliyyəti indi hamımızın fəxrlə xatırladığı bir ordunun qurulmasını təmin etdi. Başlıcası isə, Azərbaycan hökuməti Cümhuriyyət Ordusunun qurulmasına rəhbərliyi Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski kimi dahi hərbçilərimizə həvalə etdi.

Səməd bəy Mehmandarov 23 ay ərzində nazir kimi möhtəşəm quruculuq işləri gördü, Cümhuriyyətin süqutuna kimi bu vəzifəni icra etdi, hərb tarixində yeni bir tarix yaratdı.

Osmanlı hərbi qüvvələri Azərbaycandan getdikdən sonra hərbi qüvvələrin mövcud strukturu dağılmışdı. Səməd bəy Mehmandarov bu strukturu yenidən yaratmalı oldu. Xidmətə başlamasının ilk günlərində o, xalqa müraciət etdi, xalqı milli ordunun qurulmasına dəstək verməyə çağırdı. Mövcud olan çətinliklərdən əlavə bir çətinlik də vardı: Birinci Dünya müharibəsinin nəticələrinə görə Azərbaycanı bir müddət nəzarət altına almış ingilis hərbi qüvvələrinin komandanı Hərbi Nazirliyin Bakı şəhərindən çıxarılmasını tələb etdi. Bütün nazirliklər Bakıda yerləşdiyi halda, Hərbi Nazirlik məcburən Gəncəyə köçürüldü. Buna baxmayaraq, Səməd bəy Mehmandarovun və onun ətrafına toplanmış vətənpərvər zabitlərin tarixi fədakarlığı nəticəsində ordu quruculuğunun dinamik inkişafı təmin edildi. Yaranan ordunun şücaəti nəticəsində 1920-ci ilin mart-aprel aylarında Qarabağı Azərbaycandan qoparmaq istəyən erməni təcavüzkar qüvvələrinə ağır zərbə vuruldu, niyyət baş tutmadı.

Cümhuriyyət Ordusunun mövcud olduğu müddət ərzində onun sıralarında xidmət keçmiş 1140 zabitin, 406 hərbi məmurun hər birinin adı xatırlanmalıdır. General Əlağa Şıxlinskinin dediyi kimi, ordu Vətənin dayağı idi və onun sıralarında xalqın ən yaxşı nümayəndələri xidmət edirdilər. Cümhuriyyətin hər bir generalı və zabiti əyninə hərbi mundir geyinmiş hər bir yurddaşımızı Vətənin dayağı kimi görür, onlara tələbkar qayğını komandirlik məsuliyyətinin ayrılmaz hissəsi hesab edirdi.

Tam artilleriya generalları Səməd bəy Mehmandarovla Əlağa Şıxlinski haqlı olaraq Cümhuriyyət Ordusunun simvoluna çevrildilər. Onlar Azərbaycanın müstəqilliyinə son dərəcə sədaqətli oldular. Belə müqtədir hərbçilərlə bir sırada neçə-neçə generalın, yüzlərlə zabitin də Cümhuriyyət Ordusunun təşkilatlanmasında, ordunun yad qüvvələrə qarşı uğurlu mübarizə aparmasında böyük xidmətləri olub. Cümhuriyyət Ordusu sıralarında 28 general (Həbib bəy Səlimov, Süleyman bəy Əfəndiyev, Həmid bəy Qaytabaşı, Teymur bəy Novruzov, İbrahim ağa Usubov, Cavad bəy Şıxlinski, İbrahim ağa Vəkilov, Məmməd Mirzə Qacar və başqaları) xidmət etmişdi. Bu generalların rəhbərliyi ilə Cümhuriyyət ordusunun milli hərbi geyimi hazırlanmışdı, orduda Azərbaycan türkcəsi tətbiq edilmişdi, ordunun şəxsi heyəti arasında savadsızlığın ləğvi və Azərbaycanın qəhrəmanlıq tarixinin öyrənilməsi üçün konkret tədbirlər həyata keçirilmişdi. Hər gün döyüş hazırlığının başlanğıcında və sonunda Azərbaycan dilində yazılmış hərbi marşlar oxunurdu ki, bu da şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli olurdu.

Cümhuriyyət Ordusu 1919-cu ilin avqustunda Lənkəran bölgəsində, 1940-cı ilin mart-aprel aylarında isə Tovuz-Qazax və Qarabağ bölgəsində təcavüzkar separatizmi aradan qaldırmışdı...

O dövrün qəzetlərində, arxiv sənədlərində qalmış yazılara görə, Cümhuriyyət Ordusu xalqın sevimlisi, fəxr etdiyi bir qüvvə idi. Cümhuriyyət zabitləri və komandirləri bu sevgini öz əməlləri, Vətənə sədaqətli xidmətləri ilə qorumağa çalışırdılar...

**- Ordu quruculuğunda Cümhuriyyət ənənələri tarixi sədaqətin ifadəsidir...**

- Bəli, bu sədaqət tarixə tarixi bir sədaqətdir. Cümhuriyyət Ordusu ilə hazırda dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusu fərqli zamanlarda və şəraitlərdə mövcud olsalar da, onlar arasında mahiyyət eyniliyi mövcuddur. Müasir Azərbaycan Ordusu təsdiq edir ki, dövlət rəhbərliyinin aydın, konkret, məqsədyönlü siyasəti və qayğısı olmadan güclü ordu yaratmaq mümkün deyil. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda ordu quruculuğu dünyəvi ordular formatında quruldu, bu proses dövlətin qətiyyətli rəhbərliyi ilə davam etdirildi, ordu quruculuğunun istiqamətləri ilə bağlı konkret siyasət hazırlandı, tədbirlər həyata keçirildi. İlham Əliyevin respublikaya Prezidentliyi dövründə bu siyasət qətiyyətli rəhbərliyi ilə davam etdirildi. Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə qadir olan ordunun qurulması dövlət rəhbərliyinin siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ordumuz Cümhuriyyət illərində başlanan işi böyük Zəfərlə başa çatdırdı.

Zəfər ordusu olan Azərbaycan Ordusu daha da güclənəcək. Ordumuzun şəxsi heyətini bir daha Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, hər birinə xidməti uğurlar arzulayıram.

**- Müsahibəyə görə sağ olun.**

**Söhbətləşdi:**
**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib







*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Azərbaycan Ordusunda 15 İyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Xalqımızın taleyində mühüm əhəmiyyət kəsb edən, tariximizə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günü ilə bağlı hərbi qulluqçulara maarifləndirici söhbətlər aparılıb.

Qeyd edilib ki, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkəmizin həyatında yeni inkişaf dövrünün əsası qoyulub. Bu gün Ulu Öndərin Azərbaycanın xoşbəxt gələcəyi ilə bağlı ideyaları onun siyasi irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif olunublar.

Bayram günündə şəxsi heyət ölkə ərazisindəki Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, dahi şəxsiyyətin şərəfli həyat yolu və fəaliyyətindən bəhs edən filmləri izləyib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivlərinin, həmçinin incəsənət xadimlərinin iştirakı ilə konsert proqramları və müxtəlif mədəni-kütləvi tədbirlər təqdim edilib.

# 107 illik tarix - Qalib Azərbaycan Ordusu

**(Əvvəli 2-ci səhifədə)**

Vətən müharibəsində qazanılan Böyük Qələbənin təbliği məqsədilə Bakı şəhərində yaradılan Hərbi Qənimətlər Parkına gələn hər kəs düşmən üzərində qazanılan qələbəni əks etdirən - düşməndən qənimət olaraq götürülən silah-sursat, hərbi texnika və döyüş bayraqları ilə tanış olur, Azərbaycan Ordusunun gücünü bir daha dərk edir.

İkinci Qarabağ müharibəsi zamanı qazanılan qələbənin bu il artıq beşinci ildönümü tamam olur. Müharibədən sonra da ordu quruculuğu sahəsində addımlar atılır. Dünyada gərginləşən geosiyasi vəziyyətlərin fonunda bu gün regionumuzda yeni təhdidlərin baş verməsi labüddür. Son günlər dünyada baş verən xaosun fonunda Azərbaycan Ordusu inkişaf edir. Bugünkü dünya mühiti qeyri-sabitlik, münaqişələr, terror təhlükəsi və geosiyasi qarşıdurmalarla xarakterizə olunur. Dünyanın müxtəlif regionlarında baş verən müharibələr, siyasi böhranlar və iqtisadi çətinliklər dövlətlərin təhlükəsizliyini sual altına alır. Belə bir şəraitdə güclü orduya malik olmaq dövlətin suverenliyi və sabitliyinin təminatçısı rolunu oynayır. Bu baxımdan, son illərdə və xüsusilə son günlərdə baş verən qlobal xaosun fonunda





Azərbaycan Ordusunun sürətli inkişafı həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğu sahəsində yeni mərhələyə qədəm qoymuşdur. Lakin son illər, xüsusən də 2020-ci ildə baş vermiş Vətən müharibəsindən sonra Azərbaycan Ordusu keyfiyyətcə tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Müharibədə əldə edilən tarixi Qələbə təkcə torpaqlarımızın azadlığı deyil, həm də ordumuzun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Hazırda dünyada artan qeyri-sabitlik - Ukraynada müharibə, Yaxın Şərqdə davam edən qarşıdurmalar, silahlanma yarışının güclənməsi - Azərbaycan üçün təhlükəsizlik baxımından həm çağırışlar, həm də imkanlar yaradır. Azərbaycan dövləti bu çağırışlara cavab olaraq ordunun daha da modernləşdirilməsi, texniki təchizatının artırılması və döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində ciddi islahatlar həyata keçirir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu müasir silahlarla təchiz olunur, yeni hərbi hissələr açılır, kadr hazırlığına xüsusi diqqət yetirilir. Türkiyə, Pakistan və digər tərəfdaş ölkələrlə hərbi əməkdaşlıq genişlənir. Ordu sıralarında həm texniki, həm də mənəvi hazırlıq yüksək səviyyədə təmin olunur.

Bu inkişaf yalnız hərbi güc baxımından deyil, həm də regional sabitlik və sülh baxımından mühüm rol oynayır. Güclü Azərbaycan Ordusu Cənubi Qafqazda balanslaşdırılmış güc mərkəzi rolunu oynayaraq bölgədə sülhün və təhlükəsizliyin əsas təminatçılarından birinə çevrilir. Eyni zamanda, bu inkişaf Azərbaycan gənclərində vətənpərvərlik ruhunu gücləndirir və milli birliyi möhkəmləndirir.

Nəticə etibarilə, dünyanın müxtəlif nöqtələrində xaos, münaqişə və qeyri-müəyyənliklər hökm sürdüyü bir zamanda Azərbaycan kimi kiçik, lakin güclü bir dövlətin öz ordusunu inkişaf etdirməsi strateji baxımdan olduqca önəmlidir. Bu inkişaf təkcə təhlükəsizlik məsələsi deyil, həm də milli qürur və gələcəyə inam məsələsidir. Azərbaycan Ordusu inkişaf etdikcə ölkəmizin sülh içində yaşamaq haqqı da daha möhkəm əsaslar üzərində qurulur.

Bu gün Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri müasir standartlara cavab verən hərbi texnika və zəruri avadanlıqlarla zənginləşdirilir. Müdafiə Nazirliyinin strukturunda təşkilatlanma işinin təkmilləşdirilməsi prosesi icra edilir, hərbi təhsil, hərbi texniki sahənin dövrün tələbləri və dünyanın aparıcı ordularının standartları əsasında qurulub təkmilləşdirilməsi, o cümlədən yüksək dəqiqlikli silah və texnikalarla təchiz edilmiş müxtəlif bölmələrin hazırlanaraq döyüş qabiliyyətinin artırılması dövlət rəhbərliyinin ordu komandanlığının qarşısına qoyduğu əsas tapşırıqlardandır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "N" hərbi hissəsinin açılışında, şəxsi heyət qarşısında etdiyi çıxışında qeyd etdiyi kimi: "Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür".

Bəli, bu gün Azərbaycan Ordusu - Qalibiyyət Ordusu olaraq öz 107 yaşını qeyd edir. Şanlı ordumuz təkcə güc sahibi deyil, xalqının qüruru, etimad ünvanı, iradə təcəssümüdür. İllər ərzində saysız-hesabsız çətinliklərdən keçmiş, Vətən, müstəqillik, azadlıq, firavanlıq üçün canını fəda etmiş minlərlə oğlumuzun sıralarında olduğu ordumuz şərəf, qəhrəmanlıq, zəfər dolu tarix sahibidir. 107 yaşını qeyd edən Şanlı Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, şəhidlərimizin əziz ruhunu dərin ehtiramla anır, döyüşlərdə yaralananlara şəfa arzulayıram. Yaşasın Azərbaycan, Yaşasın Azərbaycan Ordusu!



**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

# "Bu gün kursantıq, sabah zabit olacağıq"



*Hələ Azərbaycan Sovet İttifaqının tərkibində olduğu dövrdə böyük tarixi şəxsiyyət Heydər Əliyev Bakıda ibtidai hərbi məktəbin açılmasını zəruri hesab etdi. Moskva onun bu təşəbbüsünü siyasi, siyasi-milli qısqanclıqla qarşıladı. SSRİ-də Naximov və Suvorov adına ibtidai hərbi məktəblərin fəaliyyət göstərdiyinin yetərli olduğunu bildirdi. Heydər Əliyev bu səbəbsiz səbəbi ciddi arqumentlərlə təkzib etdi. Azərbaycanın İttifaqda yerini də xatırlatdı, buna haqqının olduğunu da bildirdi. Güclü məntiq, qətiyyət Moskvanın etirazını üstələdi. 1971-ci ildə Bakıda 2 saylı 8 illik internat məktəbinin bazasında Cəmşid Naxçıvanski adına ibtidai hərbi məktəb açıldı. Qısa müddətdə təhsilin təşkilinə, proqram materiallarının mənimsədilməsinə, müdavimlərin yüksək təhsil və mənəvi-psixoloji hazırlığına nail olundu.*

*Cəmşid Naxçıvanski adına ibtidai hərbi məktəb 1997-ci il noyabrın 24-dən fəaliyyətini Hərbi Lisey kimi davam etdirməyə başladı. Ordu quruculuğunun yeni mərhələsində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Milli Müdafiə Universiteti yaradıldıqdan sonra isə hərbi lisey fəaliyyətini bu Universitetin tərkibində davam etdirir...*

*Hərbi liseyin 11 məzunu Azərbaycanın Milli Qəhrəmanıdır, 19 nəfər məzunu Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, yüzlərlə məzun müxtəlif orden və medallarla təltif edilib...*

*Hərbi liseyin 53-cü buraxılışından sonra məzunların dedikləri də sabahlar üçün tarixdir:*



**Kursant Ömər Məmmədzadə:**

- Mən Lənkəranda doğulmuşam, burada ilk təhsil almışam. Müəllimlərimin söhbətləri, özümün oxuduqlarım, televiziyadan izlədiklərim düşüncələrimdə bir istək yaratmaqda idi. Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanov haqqında eşitdiklərim də, oxuduqlarım da, qəhrəmana ümumxalq sevgisi də mənim düşüncələrimdə yaranmış istəyin istiqamətini qəti müəyyənləşdiribmiş. Hərbçi olmaq istədiyimi bildirəndə atam da, anam da bir qədər tərəddüd etdi, sonda ikisi də məni köksünə sıxdı, ikisi də niyyətimə xeyir-dua verdi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldum. Dərslər, laboratoriyalarda təcrübələr, çöl çıxışları - hamısı bizim hərbi bilikləri mənimsəməyimizi, hərbi vərdişlərə yiyələnməyimizi təmin etdi. Biz hərbi liseydə təhsilimizi bitirdik. Bununla da qürurlanırıq, ali hərbi təhsil alacağımızla da qürurlanacağıq.

Mən də digər kursantlar kimi özümə hərbi ixtisas bəyənmişəm. Artilleriyaçı olmağa niyyətliyəm. Niyə məhz artilleriyaçı? - İkinci Qarabağ müharibəsində hələ çox şeyi dərindən dərk edə bilməsək də, nələrisə duyurduq. Liseyə qəbul olunduqdan sonra müharibədə artilleriyaçılarımızın necə döyüşdükləri haqqında mənim də kifayət qədər geniş məlumatlarım oldu. Bu məlumatlar məni artilleriya ixtisasına yönəltdi. Mən artilleriyaçı zabit olacam...

**Kursant Amin Səmədov:**

- Səkkizinci sinifdə oxuyurdum. Çoxumuz gələcəkdə hansı ixtisası seçəcəyimizi bilmirdik. Yanvar ayının son günləri idi. Təsadüfən küçədə iki cavan hərbçi gördüm. Onların geyimləri də könlümə yatdı, paqonları da. Maraqlandım. Dedilər ki, Hərbi İnstitutun kursantlarıdırlar. Eşitdiyim kəlmələr düşüncələrimdə bir tərpəniş yaratdı. O anda qəti bir qərarım olmasa da, bir neçə gündən sonra hərbçi olmağa qərar verdim. Fikrimi sinif rəhbərimizə dedim. Əlini çiynimə qoydu, "Yaxşı fikirdir, atanla da məsləhətləş...", - dedi.

Hərbi liseyə qəbul olunanda hamıdan çox atam sevindi. "Sən zabit olacaqsan, mən zabit atası. İkimiz də eyni qüruru yaşayacağıq. Mən oğlumun sevdiyimiz orduda xidmət etməsini ömrümün ən gözəl illəri biləcəm...", - dedi. Bu gün atamın üzündə gözəl bir sevinc gördüm. Digər atalar da belə sevinirdi. Atalarımız sevinirdisə, kəndimiz sevinirdi, kəndimiz sevinirdisə, məmləkətimiz. Bütün kursant-



lar bu gün belə bir sevincə görə bir-birini təbrik etdi. Hərbi İnstitutu da belə bitirəcəyik. Kürdəmirə onda da sevinclə qayıdacam.

Liseyimizin yaranması günü keçirilən tədbirdə İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdə liseyin məzunlarının iştirakından da danışdılar. 19 nəfərin Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülməsinə də çox sevindik, bu liseyin kursantı olmağımıza da. Bu sevinci zabit olanda da yaşayacağıq!..

**Kursant Səyyad Ağazadə:**

- Mən Tərtərdənəm. Babam Birinci Qarabağ müharibəsindən söz düşəndə Tərtərdən qürurla, hərdən qəhərlə danışardı. Onu qəhrəman şəhər adlandırardı. Sonralar Azərbaycanın Milli Qəhrəmanı olmuş Vəzir Orucovun döyüşlərindən də, tərtərlilərin qəhrəmanlığından da danışardı. Düşmənin hücumlarının qarşısını ordu ilə birlikdə camaat alırdı. Onda hiss etmişdim ki, camaat ordunu,



döyüşənləri, yəni, zabitləri sevir. Dərk elədim ki, xalq hərbi qulluqçuları sevir. Mən də gələcəkdə belə bir sevgi ilə əhatələnməyi qərara aldım. Hərbi liseyə daxil olmaq istədim. Daxil oldum. Oxudum, oxuduqca öyrənmək istəyim daha da artırdı...

Liseyi bitirdik. Buraxılış mərasimində sevincimizlə bir sırada kövrəklik də yaşadıq. Sevdiyimiz ilk hərbi biliklərə yiyələndiyimiz liseydən ayrılırdıq. Hərbi İnstitutda yenə kursant kimi bir yerdə olacaqdıq. Zabit hazırlığı dərs otaqlarından, laboratoriyalardan, təlimlərdən başlanır. Biz bu başlanğıcın ərəfəsindəyik. Hərbi İnstituta hərbi liseyin məzunu kimi gedəcəyik. Orada məzunu olduğumuz liseyin şöhrətini də yüksəldəcəyik...

Zabitlərimizi, kursant yoldaşlarımı - sabahın zabitlərini Silahlı Qüvvələri Günü münasibətilə təbrik edirəm. Valideynlərimizi, zabitlərimizi əmin edirəm ki, onların arzuladığı kimi zabit olacağıq!..

**Kursant Fərid Mahmudlu:**

- Hələ Ələt qəsəbəsində orta məktəbdə oxuyanda biz də yeniyetmə təxəyyülü ilə arzularımıza, istəklərimizə uyğun olan xəyallar qururduq, özümüzü müxtəlif ali məktəblərin tələbəsi kimi təsəvvür edirdik.



Hamı öz seçiminin daha gərəkli olduğunu təsdiqləməyə çalışırdı. Onda tarix müəllimimiz bizə böyük tarixi şəxsiyyət Heydər Əliyevin bir fikrini xatırlatdı: "Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir - yəni, hərbi peşədir...". Dahi insanın bu kəlamı mənim də düşüncələrimi fəth etdi. Mənim də ürəyimdə hərbçi peşəsinə maraq yarandı. Niyyətimi müəllimimə dedim. "Sən hərbi liseydə ilk hərbi təhsil ala bilərsən, Fərid, orta təhsildən sonra Hərbi İnstitutda da təhsil ala bilərsən. Seçim sənin özünündür..." - müəllimim seçimi özümə həvalə etdi. Fikrimi ata-anama tam qərara gəldikdən sonra dedim. Əvvəl hərbi liseydə, sonra Hərbi İnstitutda təhsil almaq istədiyimi bildirdim. Razılıq verdilər...

Hərbi liseyi bitirdik, təntənəli buraxılış mərasimi oldu. Qürurla bərabər kövrəklik də yaşadıq. Tədbir ərəfəsində komandirimiz bizə dedi ki, bu kövrəkliyiniz də liseyə sevginizin təsdiqidir. Təhsilinizi Hərbi İnstitutda bu sevgi ilə davam etdirəcəksiniz. Hərbi İnstitut bizə daha geniş hərbi təhsil də verəcək, Hərbi liseyə sevgimizi də də yaşadacaq...

**Kursant Rəsul Məmmədov:**

- Hərbi liseyə kimi seçimi ilə, özünün arzusu ilə gəlmişdi, kimi valideynlərinin məsləhəti ilə, kimi tanıdığı hərbi qulluqçuların müharibə təəssüratlarına, qəhrəmanlıqlar, qəhrəmanlar haqqında söhbətlərinin təsirinə görə. Tədris başlayanda hamı bir sevginin cazibəsindəydi: Zabit olacam! Bu sevgi ilə oxuduq, liseyi bu sevgi ilə bitirdik. Liseyə daxil olanda hamımız sevinmişdik. İki ildən sonra məzun olacağımızı bilirdik. Bugünkü buraxılış tədbirinin bizim ali hərbi təhsilimizin başlanğıcı olacağını da bilirik. Ancaq doğma liseyimizdən ayrılmağın kövrəkliyini də yaşadıq. Bu kövrəklik sevgimizin davamı idi sanki.

Kursant yoldaşlarım ilə məzun yoldaşları kimi sağollaşmaq da bizə bənzərsiz duyğular yaşatdı. Biz bir-birimizə son olaraq nə arzuladıq? - Ordumuzun nümunəvi zabiti olasan! Necə gözəl arzudu! Hər birimiz hərbi liseyə bu arzunun işığında gəlmişdik.

Məzun yoldaşlarımın əksəriyyəti ilə yenə kursant yoldaşı olacam. Nə gizlədim, bəziləri ilə gələcəkdə eyni hərbi hissədə xidmət etməyi də arzulayıram. Bu gün məzunların çoxu bu duyğuları da yaşadı.

Silahlı Qüvvələr Günü ərəfəsində məzun olduq. Komandirlərimizi, zabitlərimizi, ordumuzun şəxsi heyətini məzunlar adından bu bayram münasibətilə təbrik edir, hər birinə xidməti uğurlar arzulayıram!..

**Kursant Həsən Həsənov:**

- Hərbi liseydə hərbi biliklərə yiyələnirdik, bunun davamı kimi müxtəlif tədbirlərdə də iştirak edirdik. Mənəvi-psixoloji hazırlıq baxımından əhəmiyyətli olan belə tədbirlərin birində ədəbiyyat müəllimimiz bizə bir şeirin bir beytini demişdi:

Bu gün kursantam, ancaq
Sabah zabit olacam!

Kursantın bu sevgisi hamımıza gözəl ovqat yaşatmışdı. Onda bu beyt hər birimiz üçün hamıya demək istədiyimiz bir niyyətin ifadəsi olmuşdu. Liseydə belə təhsil aldıq. Liseyi bu arzu ilə bitirdik. Hərbi İnstituta da bu niyyətlə daxil olacağıq.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin hərbçi peşəsinə verdiyi dəyər məzunların ömür yolunun işığına dönüb. Hərbi liseyin buraxılış günü



bizim hər birimizi Hərbi İnstitutun ilk dərs gününə aparacaq. Biz də zabit olacağıq. Biz də Azərbaycan Ordusunun zabiti olmağımızla qürurlanacağıq. Hər birimizin ömürlüyünə yazılmış hərbi liseyin məzunu olmağımızla qürurlandığımız kimi qürurlanacağıq.

Məzun yoldaşlarım adından ordumuzun bütün şəxsi heyətini Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# General-mayor Əliyar bəy Haşımbəyov



***Əliyar bəy Mehdi bəy oğlu Haşımbəyovun ailəsi XIX əsrin əvvəllərində Dərbənddən Bakıya köçüb (babası general Hacı Yusif xan Tahir bəy oğlu Yusifxanov Dərbəndin Kürə nahiyəsinin hakimi, atası Mehdi bəy Qərbi Tabasaranın naibi olub). 8 mart 1856-cı ildə Bakıda anadan olan Əliyar bəy ilk təhsilini Ədadiyyə (Bakı Realnı məktəbi) məktəbində alıb. 1871-ci ildə Tiflisdəki hərbi piyadalar məktəbinə daxil olub.***

23 avqust 1873-cü ildə Pavlovsk Hərbi Məktəbinə daxil olub, sonra "yunker" rütbəsində Mixaylovski Artilleriya Məktəbində oxuyub. 1878-ci ilin aprelində 21-ci artilleriya briqadasına hərbi xidmətə göndərilib. Həmin il dekabrın 18-də ona "poruçik", 1883-cü ildə "ştabs-kapitan" rütbəsi verilib.

19 dekabr 1883-cü ildən Qars vilayəti qubernatorunun kiçik köməkçisi, 8 noyabr 1884-cü ildən isə böyük köməkçisi olub. 1884-cü ildə ona "kapitan", 1892-ci ildə "podpolkovnik", 1901-ci ildə "polkovnik", 1908-ci il dekabrın 6-da xidmətinin 30-cu ilində "general-mayor" rütbəsi verilib. Həmin il Qars vilayətinin hərbi rəisi təyin olunub.

1913-cü il iyulun 14-də Əliyar bəy Haşımbəyov xəstəlik səbəbindən hərbi geyim forması daşımaq və təqaüd almaq hüququ ilə xidmətdən tərxis edilib.

Əliyar bəy Birinci Dünya müharibəsində 3-cü Qafqaz arabakravan briqadasının komandiri olub.

1916-cı il iyunun 21-də ali sərəncamla "general-mayor" rütbəsi saxlanılmaqla yenidən ordunun piyada qoşunlarına qəbul olunaraq 3-cü Qafqaz təchizat briqadasının komandiri təyin edilib.

Ordudakı qüsursuz xidmətinə, döyüşlərdə göstərdiyi igidlik və şücaətlərə görə bir çox ordenlərlə təltif edilib: üçüncü dərəcəli "Müqəddəs Stanislav" (1889), üçüncü dərəcəli "Müqəddəs Anna" (1894), ikinci dərəcəli "Müqəddəs Stanislav" (1895), ikinci dərəcəli "Müqəddəs Anna" (1898), dördüncü dərəcəli "Müqəddəs Vladimir" (1904) və üçüncü dərəcəli "Müqəddəs Vladimir" (1911).

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Əliyar bəy Haşımbəyov Azərbaycan Milli Ordusunda könüllü xidmətə başlayıb. Bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər nazirinin müavini vəzifəsində, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi İntendant İdarəsinin rəisi vəzifəsində xidmət edib. Həmin ildə Zaqatala quberniyasının qubernatoru təyin edilib. Sonradan hökumətin fərmanı ilə Cənubi-Qərbi Azərbaycanın general-qubernatoru təyin olunub.

ADR-in süqutundan sonra təqib olunan general-mayor Əliyar bəy Haşımbəyov XI ordunun Xüsusi şöbəsinin rəisi Semyon Andreyeviç Pankratovun rəhbərlik etdiyi Fövqəladə Komissiya (FK-ÇK) tərəfindən həbs olunub. Saxta ittihamlarla istintaq işgəncələrinə məruz qalaraq Azərbaycan Xalq Cümhuriyyətinin bir qrup görkəmli xadimi ilə birgə Respublika Ali İnqilabi Tribunalının hökmü ilə 1920-ci ilin mayında Nargin adasında güllələnib.

**"Azərbaycan Ordusu"**

## Əsgərin tribunası

### "Vətən bizə şəhidlərimizin əmanətidir"



***Bu gün Azərbaycan əsgəri Vətənə sevgi və böyük inamla xidmət edir. Bu xidmət Azərbaycan adlı Vətəninə, müstəqil dövlətinə, Müzəffər Ali Baş Komandanına sədaqətdir. Azərbaycan əsgəri onun dünyanın ən güclü orduları sırasında yer alan qüdrətli, yüksək döyüş qabiliyyətinə malik ordusu və bu orduya inamla, ümidlə baxan xalqı ilə qürurlanır. Azərbaycan əsgəri bu inamı, bu ümidi qorumağa qadirdir. Biz Vətənə övladlıq borcumuzu layiqincə yerinə yetiririk. Düşmən işğalından azad olunmuş ərazilərimizdə yerləşən bölmələrimizin əsgərləri olaraq Vətənin keşiyində qürurla, əzmlə dayanmışıq. Azərbaycan əsgəri igidliyi, cəsurluğu ilə tarixi zəfər qazandı. Vətənə şərəflə xidmət edirik. Biz torpaqlarımızı göz bəbəyimiz kimi qoruyuruq. Gələcək əsgərlər də belə qoruyacaqlar. Respublikamızın suverenliyi, ərazi bütövlüyü tam təmin olundu. Artıq soydaşlarımız doğma yurd yerlərinə geri dönürlər. Erməni vandallarının viran qoyduğu ərazilərimiz yenidən qurulur. Xalqımıza, ölkəmizə hər zaman əmin-amanlıq, sülh arzulayıram. Hər birimiz müstəqilliyimizin, ərazi bütövlüyümüzün keşiyində mətin dayanmışıq.***

**Əsgər**
**Seymur RƏHİMOV**
**"N" hərbi hissəsi**

## Məişət

# Yüksək məişət şəraiti döyüş hazırlığına təkan verir



Müasir ordunun qüdrəti təkcə silah və texnikanın inkişaf səviyyəsi ilə ölçülmür. Əsgərin məişət şəraiti, gündəlik rahatlığı və sosial təminatı da döyüş ruhu və hazırlığının - vətənpərvərlik hissinin möhkəmlənməsində mühüm rol oynayır. "N" hərbi hissəsində də hərbi qulluqçular üçün gərəkli şərait yaradılıb.

Şəxsi heyətin məişəti yüksək standartlara uyğun qurulub. Yaradılan şərait müasir tələblərə cavab verir. Yenidən qurulmuş və müasir avadanlıqlarla təchiz edilmiş yeməkxanaya, geniş və səliqəli yataqxanaya, təmiz və funksional hamam-camaşırxanaya, açıq və qapalı idman şəhərciyinə, habelə digər məişət otaqlarına malik olan bu hərbi hissənin əsgər yeməkxanasında təmizlik diqqətimizi cəlb etdi. Səliqə-sahman, divarlardakı təbiət mənzərələri, mətbəx avadanlıqlarının yeniliyi gigiyena və müasirliyin yüksək səviyyədə olduğunu göstərir.

Yeməkxanada çalışan heyət xüsusi geyimlərdə - əlcək və maskada xidmət göstərir. Yeməkxana növbətçisi gizir Tural Qurbanəliyev 10 ildir orduda xidmət edir, bölüyün baş çavuşudur. Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatında iştirak edib. "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.



Əsgərlərə naharda lobya şorbası, mərci, makaron üzərində mal əti qiyməsi, kişmiş kompotu və tərəvəz verilmişdi. Bu yeməklər həm dad, həm də kalori baxımından balanslaşdırılmışdır. Aşpazlar Firuzə Nəbiyeva, Səadət Məmmədova, Amaliya Pənahova və Qumru Sadiqovanın hazırladıqları nahar əsgərlərdə gözəl ovqat yaratdı.

Aşpaz Amaliya Pənahova şəhid bacısıdır. Onun qardaşı Mübariz Birinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olub.



Əsgərlər Fariz Nərimanlı, Rüfət Lətifzadə, Əkbər Əlişanlı, Əli Məmmədov və Asim Musayev qida rasionunun zənginliyindən razılıqlarını bildirdilər. Onlar dedilər ki, yeməklər həm dadlı, həm də bol olur, menyu gündəlik dəyişir, çeşidlər zəngindir.

Əsgər Fariz Nərimanlı: "Yeməklər həm dadlı, həm də bol olur. Evdə yediyimiz yeməklərdən heç də fərqlənmir. Aşpazlar bizə ana qayğısı ilə yanaşırlar".

Əsgər Əkbər Əlişanlı: "Gündəlik yeməklərimiz zəngindir. Tərəvəz salatları, şorbalar, isti yeməklər - hamısı yüksək səviyyədə hazırlanır. Burada olan şəraitə görə də çox razıyam".

Əsgər Əli Məmmədov: "Təmizlik, gigiyena qaydalarına riayət olunması bizə göstərilən qayğının göstəricisidir".

Hərbi hissədə yaradılmış şərait orduya və hərbi qulluqçulara göstərilən qayğının göstəricisidir. Müasir dövrün tələblərinə cavab verən belə təminat sistemi həm şəxsi heyətin xidmətə olan münasibətini yaxşılaşdırır, həm də orduya etimadı artırır. Bu da hərbi xidmətə sevginin, Vətənə sədaqətin göstəricisidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

## Alimlər Misirdə ikinci gizli şəhər aşkar ediblər



*Əvvəllər Misirdə yeraltı gizli şəhər tapan italiyalı tədqiqatçılar qrupu daha bir gizli şəhər aşkar edib. Onlar bildiriblər ki, bu, yerin təqribən 2 min fut (təxminən 910 metr) altında kult Giza piramidalarını birləşdirən nəhəng yeraltı kompleksin mövcudluğunu sübut edir.*

Xafra piramidasının altında nəhəng yeraltı strukturun tapıldığı ilk dəfə mart ayında elan edilib, lakin bu, aparıcı arxeoloqlar tərəfindən kəskin tənqidə səbəb olub. Onlar nəticələrin "yanlış" və elmi əsası olmadığını bəyan ediblər, çünki georadarların yerin altında o qədər dərinliyi görə bilmədiyi iddia edilirdi. Bununla belə, bir neçə ay sonra komandanın üç əsas piramidadan ən kiçiyi olan Menkaura piramidasının altında oxşar şaxtalar aşkar etdiyi bildirilir.

Şotlandiyanın Stratklayd Universitetinin radiolokasiya mütəxəssisi və tədqiqatın həmmüəllifi Filippo Biondinin sözlərinə görə, komandanın əldə etdiyi məlumat Menkauranın Xafra ilə eyni sütunlara sahib olması ehtimalının 90 faiz olduğunu göstərir.

Komanda bu ehtimala "eksperimental ölçmələr kimi, Xafranın altında müəyyən edilən strukturların Menkauranın altında da mövcud olduğunu güclü şəkildə ortaya qoyan tomoqrafiya məlumatlarının obyektiv təhlili yolu ilə gəlib.

"Biz Giza tikililərinin bir-biri ilə qarşılıqlı əlaqədə olduğuna qəti əminik ki, bu da piramidaların nəhəng yeraltı infrastruktur kompleksinin aysberqinin sadəcə görünən hissəsi olduğuna dair fikirlərimizi dəstəkləyir. Bu şəbəkə çox güman ki, əsas yeraltı strukturları birləşdirən sıx tunellər sistemindən ibarətdir", - deyə Biondi qeyd edir.

Filippo Biondi və onun komandası strukturların təxminən 38 min il əvvəl yox olmuş qədim sivilizasiya tərəfindən tikildiyini ehtimal edir. Bununla belə, arxeoloqlar üç piramidanın yaşının cəmi 4500 il olduğunu təxmin edirlər. Tədqiqatçıların xronologiyası yüksək inkişaf etmiş tarixdən əvvəlki cəmiyyətin təxminən 12 800 il əvvəl qlobal kataklizm - məsələn, Yerin kometa ilə toqquşması nəticəsində məhv edildiyi nəzəriyyəsinə əsaslanır.

Daşqınlar və xaos nəticəsində bu sivilizasiyanın əksər izləri məhv olub, sağ qalanlar isə astronomiya, mühəndislik və məbəd memarlığı sahəsində biliklərini sonrakı mədəniyyətlərə, o cümlədən qədim misirlilərə ötürüblər.

**AZƏRTAC-ın materialları əsasında**

## Çəhrayı göl

Avstraliyanın Reşerş arxipelaqında yerləşən Hiller gölü (ing. Hillier) özünün qeyri-adi rəngi ilə diqqəti cəlb edir. 1802-ci ildə kəşf olunan uzunluğu 600 metr, eni 200 metr olan bu göl çəhrayı rəngdədir. XX əsrin əvvəllərində bu göldən duz çıxarılmağa başlanılıb və bu proses 6 il davam edib. Bu gölün qeyri-adi rəngini tədqiq edib və əvvəlcə belə qərara gəliblər ki, bu göldə bitən mikroyosunların duzlu suya buraxdığı qırmızı maddənin nəticəsində əmələ gəlib. Digər bir versiyaya görə isə gölün bu cür rəng almasının səbəbi orada yaşayan xüsusi mikroorqanizmlərdir.

1950-ci ildə aparılan bir sıra araşdırmalar nəticəsində bu iddialar öz təsdiqini tapmayıb. Bir müddət sonra aparılan tədqiqatlar da nəticəsiz qalıb və indiyə kimi gölün bu rəngə boyanmasının səbəbi sirr olaraq qalmaqdadır.

Hiller gölünə yalnız hava yolu ilə getmək mümkündür.

**"Azərbaycan Ordusu"**



# İdman

### Gənc azərbaycanlı qız Almaniyada şahmat üzrə çempion olub



Azərbaycan əsilli gənc şahmatçı Sona Bəşirova, Berlinin "SV Empor Berlin" klubunun təmsilçisi olaraq 10 yaşadək (U10w) kateqoriya üzrə Almaniya çempionu olub.

Turnirin gərgin keçən son turunda heç-heçə oynayan Sona üçün bu nəticə birinciliyi qazanmaq üçün kifayət edib. Yarışda Almaniyanın bütün federal torpaqlarından əvvəlcədən seçim mərhələsindən keçmiş 42 şahmatçı iştirak edib. Sona Bəşirova turniri 9 mümkün xaldan 7 xalla başa vurub və bütün turlar ərzində sabit və inamlı oyun nümayiş etdirib.

Bu qələbə gənc şahmatçıya təkcə Almaniya çempionu adını deyil, həm də 10 yaşadək oyunçular arasında keçiriləcək dünya və Avropa çempionatlarına vəsiqə qazandırıb. Sona Bəşirova artıq Almaniyanı beynəlxalq arenada təmsil edəcək.

Berlin Şahmat Assosiasiyası gənc idmançını bu böyük uğur münasibətilə təbrik edib, ona yeni nailiyyətlər arzulayıb.

### Azərbaycan cüdoçusu dünya çempionatında bürünc medal qazanıb




Azərbaycan cüdoçuları Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında ilk medallarını qazanıblar.

Zelim Tçkayev (81 kiloqram) 3-cü yer uğrunda qarşılaşmada BƏƏ təmsilçisi Nuqzari Tatalişvili ilə üz-üzə gəlib. Rəqibini məğlub edən idmançımız fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

### Azərbaycan 2027-ci ildə ilk dəfə Xizək alpinizmi üzrə dünya çempionatına ev sahibliyi edəcək




Qış İdman Növləri Federasiyası tərəfindən Xizək Alpinizmi üzrə Dünya çempionatının Azərbaycanda keçirilməsi ilə bağlı Beynəlxalq Xizək Alpinizmi Federasiyasına (İSMF) ünvanlanan müraciətə əsasən, yarışın "Şahdağ"da keçirilməsi ilə bağlı qərar qəbul edilib və beynəlxalq federasiyanın yarış təqviminə salınıb.

Dünya çempionatının 2027-ci ilin 28 fevral-7 mart tarixlərində "Şahdağ" Turizm Mərkəzində keçirilməsi nəzərdə tutulur.

### Bakıda klassik avtomobillərin yürüşü və çövkən yarışı keçiriləcək




Avqustun 30-da Bakıda klassik avtomobillərin yürüşü və çövkən yarışı keçiriləcək.

"At gücü" adlı tədbir Azərbaycan Avtomobil Federasiyası (AAF) və Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə baş tutacaq.

Dənizkənarı Milli Parkdan start götürəcək yürüş paytaxtın mərkəzi küçələrini əhatə edəcək və Binə Atçılıq Mərkəzində başa çatacaq.

Binə Atçılıq Mərkəzində klassik avtomobillərin sərgisi, eləcə də milli atüstü oyun növlərindən olan çövkən yarışı və atların şousu təşkil ediləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyənin 18 vilayətində antiterror əməliyyatı keçirilib



Türkiyənin daxili işlər naziri Ali Yerlikaya İŞİD terror təşkilatı ilə əlaqədə şübhəli bilinən ümumilikdə 39 nəfərin saxlanıldığını açıqlayıb.

Əməliyyat Türkiyənin 18 vilayətini, o cümlədən Adana, Hatay, Kahramanmaraş, Kayseri, İstanbul və Bursanı əhatə edib.

Nazirin sözlərinə görə, saxlanılan şəxslər İŞİD-ə bağlı strukturlara vəsait köçürüb, həmçinin sosial şəbəkələrdə terror ideologiyasının təbliği ilə məşğul olublar. Axtarışlar zamanı qadağan olunmuş ədəbiyyat və elektron məlumatlar aşkar edilib.

Daxili İşlər Nazirliyinin rəhbəri iki həftə davam edən əməliyyatın əlaqələndirilməsinə görə vilayətlərin valiliklərinə, həmçinin prokurorluğa təşəkkür edib.

### İsrail raketləri vurmaq üçün lazer hava hücumundan müdafiə sistemindən istifadə etməyə başlayıb



İsrail İranın raket və pilotsuz təyyarələrini vurmaq üçün ilk dəfə döyüş şəraitində "Iron Beam" lazer hava hücumundan müdafiə sistemindən istifadə etməyə başlayıb.

Bunu TASS agentliyinə müsahibəsində İsrailin Moskvadakı səfirliyinin nümayəndəsi deyib.

O, İranla qarşıdurmada bu sistemin döyüş şəraitində ilk dəfə istifadə edildiyinə aydınlıq gətirib.

"Iron Beam" sistemi lazer şüasından istifadə edərək qısamənzilli raketləri, minaatanları və artilleriya mərmilərini zərərsizləşdirmək üçün nəzərdə tutulub. Onun kiçik PUA-ları da məhv edə biləcəyi güman edilir.

### Fransanın "Rafale" təyyarəsi gözlənilməz rəqabətlə qarşılaşır



Fransanın "Dassault Aviation" şirkətinin "Rafale" təyyarəsi getdikcə daha çox rəqabətlə üzləşir.

Daha müasir hava qüvvələri axtarışında olan İndoneziya Çinin J-10 qırıcısına üstünlük verir.

Çinin 4,5-ci nəsil J-10 qırıcı təyyarəsi Hindistan və Pakistan arasındakı toqquşma zamanı özünü doğruldub. Cakartanın artıq 42 J-10 təyyarəsi sifarişi "Rafale"ın nüfuzunu itirdiyini əks etdirir.

İndoneziya müdafiə nazirinin müavini Donni Ermavan Taufanto "Reuters" agentliyinə 4,5 nəsil modelin həqiqətən də yüksək qiymətləndirilən modellər arasında olduğunu təsdiqləyib.

"Çinlə müzakirələrimiz oldu, onlar bizə çox şeylər təklif etdilər", - deyən indoneziyalı nazir gəmilər və silah sistemləri də daxil olmaqla, digər təkliflərin də nəzərdən keçirildiyini xatırladıb.

J-10 qırıcıları cəlbedici qiymətinə görə daha çox diqqət mərkəzindədir. Bununla belə, İndoneziya artıq dəyəri səkkiz milyard avrodan çox olan 42 "Rafale" sifariş edib. Çatdırılmanın gələn il baş tutacağı gözlənilir.

Cakarta, həmçinin "Boeing" ilə Amerika F-15EX-lərinin alışı ilə bağlı anlaşma memorandumu imzalayıb.

**AZƏRTAC-ın materialları əsasında**


**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar** Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** Rəşid HÜSEYNOV

Lisenziya № 361 Sifariş № 267 Nüsxə 3630